Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 64** **QƏRAR** **Bakı şəhəri, 18 fevral 2016-cı il**

# "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"nın, "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili avtonəqliyyat vasitələrinin hərəkət etməsinə görə ödənişlərin dərəcələri"nin və "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət edən avtonəqliyyat vasitələrinin icazə verilən qabarit və çəki parametrləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 104 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 oktyabr tarixli 645 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 104 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 601; 2014, № 4, maddə 454) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bəndə "tərəfindən" sözündən sonra "hərəkət vaxtı və hərəkət sürətinə münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə razılaşdırmaqla" sözləri əlavə edilsin.

2. 4.1-ci, 4.4-cü və 4.6-cı bəndlərdə "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən səlahiyyətləri daxilində" sözləri "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən" sözləri ilə əvəz edilsin.

3. 4.2-ci bənddən "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və" sözləri çıxarılsın.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***